Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi




# İXRAC İCMALI

Sentyabr 2021

http://ereforms.gov.az
info@ereforms.org

“

Biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq və azad edilmiş torpaqları quracağıq, bərpa edəcəyik. O torpaqlara artıq həyat qayıdır, insanlar qayıdır. Bu qayıdışı ən qısa müddət ərzində təmin etmək bu gün bizim başlıca vəzifəmizdir. Öz müraciətimi Qələbəmizin ayrılmaz hissəsi olan sözlərlə tamamlamaq istəyirəm:
Qarabağ bizimdir!
Qarabağ Azərbaycandır!



Müzəffər Ali Baş Komandan,
Prezident İlham Əliyevin
Anım Günü ilə əlaqədar xalqa müraciəti
27 sentyabr 2021

# MÜNDƏRİCAT

2021 İXRAC İCMALI sentyabr


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ______ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ______ səh. 9

"Azərkosmos"a aid xidmət ixracı haqqında məlumat ______ səh. 12

Qeyri-rezidentlər tərəfindən aparılan bank əməliyyatları haqqında məlumat ______ səh. 13

Azexport.az portalına daxil olan sifarişlər haqqında məlumat ______ səh. 15

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən qeyri-neft ixracı haqqında məlumat ______ səh. 18

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2021-ci ilin yanvar-avqust ayları ərzində **13 milyard ABŞ dolları** dəyərində mal ixrac olunmuşdur

## 2021-ci ilin yanvar-avqust aylarında qeyri-neft sektoru üzrə ixrac **1,6 milyard ABŞ dolları** təşkil etmişdir

2021-ci ilin 8 ayı ərzində Azərbaycanın ixracı **13 milyard ABŞ dolları** olub. Qeyri-neft sektoru üzrə **1,6 milyard ABŞ dolları** dəyərində ixrac reallaşdırılıb. Qeyri-neft sektoru üzrə ixrac 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə **429 milyon ABŞ dolları** və ya **37,1 faiz** artıb. 2021-ci ilin 8 ayı ərzində qeyri-neft ixracında meyvə-tərəvəz məhsulları 364,7 milyon ABŞ dolları ilə əsas paya malik olub. Müvafiq dövr ərzində qeyri-neft ixracında qara metallar və onlardan hazırlanan məmulatlar 1,5 dəfə, pambıq iplik 3,1 dəfə, şəkər 2,2 dəfə, kimya sənayesi məhsulları 68%, pambıq lifi 88,5%, alüminium və ondan hazırlanan məmulatlarda isə 45% artım qeydə alınıb.

Normallaşma prosesinin davam etdiyi dövrdə avqust ayı üzrə xarici ticarət həcmi 1,6 milyard ABŞ dolları təşkil edib. Qeyri-neft sektoru üzrə ixracda artım 95,3 faiz təşkil etməklə 230,4 milyon ABŞ dolları olub.

2021-ci ilin avqust ayı ərzində yeyinti məhsulları üzrə ixrac ötən ilin müvafiq ayı ilə müqayisədə 53,1% artaraq 38,3 milyon ABŞ dolları, qeyri-yeyinti məhsulları üzrə isə 106,6% artaraq 192,1 milyon ABŞ dolları təşkil edib.

2021-ci ilin yanvar-avqust ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı (143,8 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda qızıl (140,1 milyon ABŞ dolları) ikinci, pomidor (tomat) (128,2 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2021-ci ilin yanvar-avqust ayları ərzində Rusiyaya 522,3 milyon, Türkiyəyə 407,3 milyon, İsveçrəyə 154,9 milyon, Gürcüstana 109,5 milyon və ABŞ-a 48 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2021-ci ilin avqust ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya (54,4 milyon ABŞ dolları) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə ikinci (48 milyon ABŞ dolları) və İsveçrə üçüncü (25,5 milyon ABŞ dolları) olub.

2021-ci ilin avqust ayı ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr (27,8 milyon ABŞ dolları) birinci, qızıl (23,4 milyon ABŞ dolları) ikinci və karbamid (11 milyon ABŞ dolları) üçüncü olub.



# 2021-Cİ İLİN YANVAR-AVQUST AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2021
İXRAC İCMALI
sentyabr



# 2021-Cİ İLİN AVQUST AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)





# 2021-Cİ İLİN AVQUST AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2021-Cİ İLİN YANVAR-AVQUST AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2021 İXRAC İCMALI sentyabr



# 2021-Cİ İLİN AVQUST AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2021 İXRAC İCMALI sentyabr



# 2021-Cİ İLİN YANVAR-AVQUST AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2021-Cİ İLİN AVQUST AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| Mal | 2021 | 2020 |
|---|---|---|
| Polimerləşmədə ilkin formalı maddələr | 27,8 | 0,28 |
| Qızıl | 23,4 | 28,0 |
| Karbamid | 11,0 | 7,4 |
| Şaftalı | 10,8 | 3,7 |
| Pambıq mahlıcı | 10,0 | 6,0 |
| Metanol (metil spirti) | 9,7 | 4,7 |
| İlkin formalı polipropilen | 9,0 | 5,1 |
| Alüminium plitələr | 7,5 | 2,9 |
| Emal olunmamış aşqarlanmamış alüminium | 7,3 | 5,4 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2021-ci ilin yanvar-avqust ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "MKT İstehsalat Kommersiya" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Local Garden" Məhdud Məsuliyyətli Cəmiyyəti, "Baku Steel Company" MMC, "P-Aqro" MMC, "Sun Food" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "RAM Beynəlxalq Nəqliyyat və Ticarət LTD" MMC, Hidayətov Təyyar Hidayət oğlu, Cəfərov İlqar Südgül oğlu.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Socar Polymer" MMC, "Azergold" QSC, "Azəralüminium" MMC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərenerji" ATSC, "Azərbaycan Hava Yolları" QSC, "Azəripək" MMC, "Azərbaycan Dəmir Yolları" QSC, "Naxçıvan MR Dövlət Energetika Xidməti".

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2021-Cİ İLİN YANVAR-AVQUST AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)





# 2021-Cİ İLİN YANVAR-AVQUST AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

### (ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2021 İXRAC İCMALI sentyabr



3

# “AZƏRKOSMOS”A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT

## 2021-ci ilin yanvar-avqust aylarında “Azərkosmos” ASC 30,8 milyon ABŞ dolları dəyərində xidmət ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri sahəsi xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2021-ci ilin yanvar-avqust aylarında “Azərkosmos” ASC tərəfindən dünyanın 31 ölkəsinə **30,8 milyon ABŞ dolları** dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilib. “Azərkosmos” ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **91 faizini** təşkil edib.

2021-ci ilin avqust ayında isə “Azərkosmos” ASC dünyanın 22 ölkəsinə **2,2 milyon ABŞ dolları** dəyərində xidmət ixrac edib.

2021-ci ilin yanvar-avqust ayları ərzində portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində isə **9,6 milyon ABŞ dolları** ilə ABŞ, **6,6 milyon ABŞ dolları** ilə Birləşmiş Krallıq, **6,4 milyon ABŞ dolları** ilə Fransa, **3,7 milyon ABŞ dolları** ilə Malayziya və **1,1 milyon ABŞ dolları** ilə BƏƏ qərarlaşıb.

# 2021-Cİ İLİN YANVAR-AVQUST AYLARINDA "AZƏRKOSMOS" ASC 30,8 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR

2021
İXRAC İCMALI
sentyabr



## Xidmət ixrac etdiyi 5 əsas ölkə

- ABŞ: 9,6 mln $
- Birləşmiş Krallıq: 6,6 mln $
- Fransa: 6,4 mln $
- Malayziya: 3,7 mln $
- BƏƏ: 1,1 mln $

yanvar-avqust

- 2020: 30,4 mln $
- 2021: 30,8 mln $

+1,3%

# 4

# QEYRİ-REZİDENTLƏR TƏRƏFİNDƏN APARILAN BANK ƏMƏLİYYATLARI HAQQINDA MƏLUMAT



## 2021-ci ilin yanvar-avqust ayları ərzində Azərbaycana gələn xaricilər bank kartları vasitəsi ilə 712,3 milyon manatlıq əməliyyat aparmışlar

Koronovirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməyib.

2021-ci ilin avqust ayında xarici vətəndaşların bank kartları vasitəsi ilə ölkəmizdə apardıqları əməliyyatların həcmi **104,2 milyon manat** təşkil edib. 2021-ci ilin yanvar-avqust aylarında isə əcnəbilər bank kartları vasitəsi ilə **712,3 milyon manatlıq** əməliyyat aparıblar.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN BANK KARTLARI VASİTƏSİ İLƏ APARDIQLARI ƏMƏLİYYATLAR (milyon manatla)




* Mərkəzi Bankın 2021-ci il üçün yenilənmiş statistikası əsasında

5

# AZEXPORT.AZ PORTALINA DAXİL OLAN SİFARİŞLƏR HAQQINDA MƏLUMAT



## Portala daxil olan ixrac sifarişlərinin ümumi dəyəri 2 milyard 549 milyon ABŞ dolları təşkil etmişdir

2021-ci ilin avqust ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri **40,8 milyon ABŞ dolları** təşkil edib.

2021-ci ilin yanvar-avqust aylarında Azexport.az portalına **324,4 milyon ABŞ dolları** dəyərində ixrac sifarişləri daxil olub. 2021-ci ilin avqust ayında Azexport.az portalına ən çox ixrac sifarişi pambıq xurma, nar, toyuq yumurtası, fındıq ləpəsi, biyan kökü və s. mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2021-ci ilin 31 avqust tarixinə kimi (56 ay ərzində) Azexport.az portalına dünyanın 145 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri **2 milyard 549 milyon ABŞ dolları** təşkil edib.

# AZEXPORT.AZ PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN MƏBLƏĞİ
(milyon ABŞ dolları ilə)









# 2021-Cİ İLİN AVQUST AYINDA AZEXPORT.AZ PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR



6

# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN QEYRİ-NEFT İXRACI HAQQINDA MƏLUMAT



## 2021-ci ilin sentyabr ayında “Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən 16,7 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə 2021-ci ilin sentyabr ayı ərzində hüquqi və fiziki şəxslər tərəfindən **127 dəfə müraciət** daxil olmuşdur. Ümumilikdə **183 ədəd sertifikat** (102 ədəd mənşə, 47 ədəd baytarlıq, 34 ədəd CİTES) verilib.

Cari ilin sentyabr ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə **16,7 milyon ABŞ dolları** dəyərində ixrac həyata keçirilmişdir. Hüquqi və fiziki şəxslər tərəfindən qiymətli külçələr, nar, alma, şaftalı, albalı, portağal şirələri, qarışıq şirələr, narşərab, ağ, qırmızı, şərab, vodka, pambıq mahlıcı, tibbi zəli, yonca, biyan kökü, iri və xırdabuynuzlu heyvanların daxili orqanları, iribuynuzlu heyvan dərisinin sənayedə kəsilməsi nəticəsində yığılan faydasız tullantılar, dondurulmuş Xəzər kilkəsi, dondurulmuş toyuq ayaqları, iribuynuzlu heyvan bağırsağı, pendir, polad armatur yayması, polad boru, Dağıstan turunun ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında qiymətli külçələr- 54,7%, pambıq mahlıcı-15,4%, polad armatur yayması-14,7%, pendir-4,7%, meyvə şirələri-2,7% ixracı

üstünlük təşkil etmişdir. Sertifikat verilən məhsullar 19 ölkəyə-İsveçrə-54,7%, Türkiyə-18,9%, Rusiya-13,5%, Gürcüstan-7,7%, Ukrayna-1,3%, digər ölkələrə-3,9% (ABŞ, Belarus, Qazaxıstan, Malayziya, İsrail, Özbəkistan, BƏƏ, Kanada, Azərbaycan (Duty Free), Misir, Honq-Konq, Almaniya, Avstraliya, Macarıstan) ixrac edilmişdir. İxrac olunan məhsulların hava nəqliyyatı ilə-57%, avtomobil nəqliyyatı ilə-34,6%, dəmiryolu nəqliyyatı ilə-7,4%, qarışıq nəqliyyat ilə ixrac isə- 1% təşkil edir.

2017-ci ildən 2021-ci ilin oktyabr ayına qədər “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə ixrac edilən mal və məhsulların dəyəri **641,7 milyon ABŞ dolları** təşkil edib.



## 2021-Cİ İLİN SENTYABR AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI
### (milyon ABŞ dolları ilə)

2021
İXRAC İCMALI
sentyabr



# CARİ İLİN SENTYABR AYINDA “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİNİN TƏQDİM ETDİYİ SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ BÖLGÜSÜ

| | |
|---|---|
| İsveçrə | 54,7% |
| Türkiyə | 18,9% |
| Rusiya | 13,5% |
| Gürcüstan | 7,7% |
| Ukrayna | 1,3% |
| Digər ölkələr | 3,9% |



# CARİ İLİN SENTYABR AYINDA “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ ƏN ÇOX İXRAC OLUNAN MƏHSULLARIN BÖLGÜSÜ





# CARİ İLİN SENTYABR AYINDA “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ İXRAC EDİLƏN MƏHSULLARIN NƏQLİYYAT ÜZRƏ BÖLGÜSÜ





Hava nəqliyyatı

**57%**



Avtomobil nəqliyyatı

**34,6%**



Dəmiryolu nəqliyyatı

**7,4%**



Qarışıq nəqliyyat

**1%**

**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
"İxrac İcmalı" jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org

http://ereforms.gov.az

/iqtisadiislahat